**«TƏSDİQ EDİLMİŞDİR»**
Azərbaycan Respublikasının Prezidenti
yanında Qiymətli Kağızlar üzrə Dövlət
Komitəsi Əmr 036
«06» mart 2000-ci il
Sədr _______________ H. Babayev

**İnvestisiya fondunun ala biləcəyi qiymətli kağızların növləri,**
**habelə fondun investisiya portfelinin likvidliyi üzrə**
**T Ə L Ə B L Ə R**

I. Ümumi müddəalar

1.1. Bu Tələblər «İnvestisiya fondları haqqında» Azərbaycan Respub-likası Qanununun, «İnvestisiya fondları haqqında» Azərbaycan Respub-likası Qanununun tətbiq edilməsi barədə» Azərbaycan Respublikası Prezi-dentinin 05 yanvar 2000-ci il tarixli 245 nömrəli Fərmanına və Azər-baycan Respublikası Prezidentinin 26 iyul 1999-cu il tarixli 161 nömrəli Fərmanı ilə təsdiq edilmiş «Azərbaycan Respublikasının Prezidenti yanında Qiymətli Kağızlar üzrə Dövlət Komitəsi haqqında» Əsasnamənin tələblərinə müvafiq hazırlanmışdır.

1.2. Bu tələblər investisiya fondları (bundan sonra Fond) tərəfindən alına bilən qiymətli kağızların növlərini, habelə Fondun investisiya portfelinin likvidlik səviyyəsini müəyyən edir.

II. Fondun investisiya portfelinin likvidliyi üzrə tələblər və fondun ala biləcəyi qiymətli kağızların növləri

2.1. Fondun investisiya portfelinin likvidliyi üzrə tələblər «İnves-tisiya fondları haqqında» Azərbaycan Respublikası Qanununun 6-cı və 15-ci maddələri ilə müəyyən edilir.

2.2. Bazar konyukturasının və (və ya) Fondun xalis aktivlərinin dəyişməsi müəyyən edilmiş tələblərin pozulmasına gətirib çıxartdığı halda Fondun müdiriyyəti (müdiri) Fondun göstəricilərini 3 (üç) ay müddətində müəyyən edilmiş tələblərə uyğunlaşdırmalıdır.

2.3. Fondun göstəricilərini 2.2-ci bənddə göstərilən müddətdə bazarda yaranmış qeyri-likvid şəraiti səbəbindən uyğunlaşdırılması mümkün olmadığı halda və ya

uyğunlaşdırma Fonda külli miqdarda zərərin dəyməsi ilə nəticələnə bildiyi halda bu müddət Azərbaycan Respublikası Prezidenti yanında Qiymətli Kağızlar üzrə Dövlət Komitəsi tərəfindən uzadıla bilər.

2.4. Ödəniş funksiyalarını yerinə yetirən qiymətli kağızlara, veksellərə, özəlləşdirmə paylarına və özəlləşdirmə opsionlarına (çek investisiya fondları istisna olmaqla) investisiya qoyuluşlarının həyata keçirilməsinə yol verilmir.

III. Məs'uliyyət

3.1. Bu Tələbləri pozan şəxslər Azərbaycan Respublikasının mövcud qanunvericiliyinə uyğun olaraq məs'uliyyət daşıyırlar.

IV. Qüvvəyə minməsi qaydası

4.1. Bu Tələblər təsdiq olunduğu gündən qüvvəyə minir.